**525-ci qəzet**. - 2024. - 22 oktyabr. - № 193. - S. 14.

# Multikultural rəngarənglik nümunəsi

**Qurban Cəbrayıl**

Tolerantlıq və multikultural dəyərlər Azərbaycanımızın çoxəsrlik mənəvi sərvətlərindəndir. Yüzillər boyu ən müxtəlif millətlərin və dinlərin təmsilçiləri bu məmləkətdə dinc, yanaşı, mehriban yaşayıb, bir-birinin həyat tərzinə, inancına hörmətlə yanaşıb, xeyir-şərində iştirak edib, yaxın qohum olub, qaynayıb-qarışıblar. Taleyin hökmü, yaxud şəxsi seçimi ilə ölkəmizə təşrif gətirib uzun müddət, ömürlük yaşamalı olanlar burada özlərini yad hiss etməyib, ögey münasibətlə üzləşməyiblər. Uzaq keçmişdən siyasi təzyiqlər, təbii fəlakətlər, hansısa digər səbəblərdən vətənlərini tərk etmək məcburiyyətində qalanlar daimi məskunlaşmaqdan ötrü belə bir məmləkətin varlığı barədə xəbərləşib, hətta tək-tək yox, el-oba şəklində köçüb gəliblər. Bu gün respublikamızın ayrı-ayrı regionlarında etnik rəngarəngliyin tam mənzərəsi canlanmaqdadır.

Azərbaycanın şimal-qərb bölgəsində yerləşən, şimaldan qarlı dağlarla Rusiya Federasiyasının Dağıstan Muxtar Respublikası ilə, cənubda Qanıx çayı vasitəsilə Gürcüstanla sərhədlənən Zaqatala da belə məkanlardandır. Rayonda 30-dan çox millətin nümayəndəsi eyni məntəqələrdə, qonşuluq şəraitində yaşayır, eyni müəssisələrdə çalışıb dolanışıqlarını təmin edir, bir-birinə dəstək olur, can deyib, can eşidirlər. Paşan kəndində avar, rus, talış və azərbaycanlıların qovuşuğundan ibarət sadə, zəhmətkeş, eyni zamanda maraqlı bir ailənin yaşaması barədə buradakı orta məktəbin direktoru Elnarə Məmmədova söyləmişdi. Mən Ananyevlər ailəsinin qapısını da məhz bu tolerant mühitlə tanış olmaqdan ötrü döymüşdüm. Lakin salam-kəlamdan sonra eşitdiyim başqa bir xəbərə də xeyli qürurlandım: ailənin gənc üzvlərindən biri - Nazim Roman oğlu Ananyev 2022-ci ilin aprelindən həqiqi hərbi xidmətdə olarkən Kəlbəcərin Cermux ərazisində yaralanıb. Buna baxmayaraq, 2023-cü il sentyabrın 19-da antiterror tədbirlərinə qatılaraq Azərbaycanın dövlət suverenliyinin bərpası uğrunda töhfəsini verib. 24 saat müddətində separatçı düşmən tör-töküntülərinə aman verməyən igid əsgər döyüş meydanında böyük rəşadət göstərərək Prezident İlham Əliyevin sərəncamına əsasən "Şücaətə görə" medalı ilə təltif olunub. Böyük fərəhlə həmin təltifi ən vacib sənədlərin saxlandığı siyirmədən çıxarıb göstərən atanın sevincinə biz də şərik olduq.

Ananyevlərlə yaxından tanışlıqdan ötrü ötən əsrin qırxıncı illərinə qısa da olsa, ekskurs etmək gərəkdir. XIX əsrdə rus çarizminin zülm və istibdadına, iyirminci yüzilliyin əvvəllərində isə bolşeviklərin idarəçiliyinə boyun əyməyən bölgə əhalisini, azadlıqsevər dağlıları 37-nin repressiyası da qorxutmamışdı. 1940-cı ildə sovet rejiminin ucqarlarla bağlı fəaliyyəti, xüsusən də milli siyasəti ilə barışmayan Qardaşovlar nəslinin ağsaqqalı Şamil kişi həyat yoldaşı Xacay xanım və qızı Fatimə ilə birgə Rusiyanın Tomsk vilayətinə sürgün olunmuşdular. Taleyin qisməti ilə orada Mixail adlı bir rus hərbçi müsəlmanlığı qəbul edərək Fatimə xanımla evlənir, bu izdivacdan Vladimir adlı oğulları doğulur. Sonra onlar Azərbaycana köçüblər və gənc Volodya Astarada rəsmxət müəllimi işləyərkən - 1976-cı ildə rayonun Giləkəran kənd sakini, talış millətindən olan Narxanım adlı qızla ailə qurur. İki qız, bir oğul övladları dünyaya gəlir. Qızlardan biri vəfat etsə də, Roman və Aida həyatdadırlar. Cənub bölgəsində xeyli vaxt çalışan cütlük iki övladı ilə birgə Vladimirin ana babası Şamil Qardaşovun yurduna - Zaqatalanın Makov sovetliyinin Paşan kəndinə qayıdıb yaşayışlarını burada davam etdirirlər - kişi müəllim işləyir, qadın isə tütünçülük, bağçılıq, digər kənd təsərrüfatı sahələri ilə məşğul olur. Bir neçə ildir ki, təqaüddə olan baba və nənə yenə də zəhmətdən, gücləri yetən, bacardıqları işləri görməkdən usanmayıblar, boş vaxtlarını artıq həddi-buluğa çatan nəvələri ilə keçirməkdən zövq alırlar.

Artıq 45-ci yaşda olan Roman da uşaqlıqdan halal zəhmətə alışıb, dülgərlik peşəsinə yiyələnib. Həyətindəki balaca sexdə quru ağac, taxta materialdan müxtəlif məmulatlar - qapı, pəncərə, stol, stul, xüsusən də arı yeşikləri və ramkalar hazırlayır. Həm də maraqlı məşğuliyyət saydığı arıçılıqla məşğuldur. Ömür-gün yoldaşı Səidət xanım Balakən rayonunun Mollaçıbinə kəndindəndir. Onun da atası İbrahimxəlil kişi milliyyətcə avar, anası Sevil xanım azərbaycanlıdır. Ailənin kiçik fındıq bağı, mal-davarı da var.

Biz Paşanda olarkən Vladimir Mixail oğlu ilə görüşə bilmədik, o, qonşu kənddəki qohumlarına baş çəkməyə getmişdi. Romanın evində açılan çay süfrəsi arxasında söhbətimiz xeyli maraqlı keçdi. 66 yaşlı talış qızı Narxanım nənəni avar xanımlardan heç fərqləndirmək mümkün deyil. O, avar dilini də talış, rus, Azərbaycan dili qədər bilir, ləhcəsiz, təmiz danışır: "Bu yerlərin ab-havasına, adət-ənənələrinə, mətbəxinə çoxdan bələdəm. İlk günlər cənub bölgəsindən, yerim-yurdumdan, doğmalarımdan ötrü çox darıxırdım. Tədricən hər şey qaydasına düşdü, iş-gücə, ailə qayğılarına, övladlarımı böyütməyə başım qarışdı. Ara bir astaralı qohumlarım gəlirdilər, biz gedirdik... Məni bura ən çox bağlayan isə zaqatalalıların, Paşan camaatının məhrəm münasibəti, mehribanlığı, qonaqpərvərliyi oldu. Ləvəngini və sairi yaxşı hazırlayırdım,

sonra sürhüllü, xorbeçədələ, ət girsi və digər xəmir xörəklərini bişirməyi də təkmilləşdirdim. Talış və avar kulinariyasının sintezi əla alınır (gülür). Oğlumdan, qızımdan, gəlinimdən, nəvələrimdən də çox razıyam".

Roman qazi oğlu Nazim haqqında danışarkən 30 il erməni işğalında qalan torpaqlarımızın - qədim və gözəl Qarabağın azad edilməsinə, əsl sahiblərinə qovuşmasına çox şad olduğunu söylədi: "Kiçik oğlum Mikayıl kənd orta məktəbinin XI sinif şagirdidir, yaxşı oxuyur, idmanla məşğuldur, təsərrüfat işlərində mənə, anasına yaxından köməklik göstərir. O da Vətən, xalq qarşısında hərbi borcunu yerinə yetirəcəyi günləri səbirsizliklə gözləyir. Lazım gəlsə, mən özüm də Azərbaycanın müdafiəsinə qalxmağa hazıram. Şükür Allaha, hamımız çalışırıq, gündəlik ruzimizi qazanırıq, dövlətimizdən də razıyıq, müstəqillik bizim ən böyük sərvətimizdir".

"Təki daha müharibələr baş verməsin, sülh, əmin-amanlıq, aydın səma olsun!" - deyə Romanın həyat yoldaşı Səidət xanım söhbətə qoşulur: "Azərbaycan həm 20 Yanvarda, həm Birinci Qarabağ savaşında, həm də Vətən müharibəsində qurbanlar verdi, Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Sağ olsun dövlət rəhbərliyimiz, Prezident İlham Əliyev, Mehriban xanım ölkəmizin tərəqqisi üçün böyük işlər görürlər. Qarabağda, Şərqi Zəngəzurda, ümumiyyətlə bütün respublikada quruculuq, abadlıq işləri gedir. Qoy gənclərimiz indidən belə əmək cəbhələrində xidmət göstərsinlər!"

Roman Vladimir oğlu sonda rayonun Danaçı kəndindən Paşana gəlin köçmüş Patimat Qurbanovanı da rəhmətlə anaraq fikrə daldı. Nənəsindən sonra ailəyə qayğı göstərdiyini, atasına süd analığı edib böyütdüyünü, onlara namaz qılmağı, oruc tutmağı öyrətdiyini vurğuladı.

Bəli, ölkəmizin şimal-qərb bölgəsində, xüsusən də Şəki, Qax, Zaqatala, Balakən rayonlarında belə tolerant ailə mühiti çoxdandır heç kimi təəccübləndirmir. Ananyevlər də rus, talış, avar, azərbaycanlıları birləşdirən gözəl bir dünyadır. İnşallah Nazim və Mikayılın o biri yarısı timsalında həmin isti ocağa gəlin köçəcək, məsələn, saxur və inqilo qızları da bu etnik spektri daha rəngarəng edəcək, Azərbaycanımızın yeni nəsil müdafiəçiləri və qurucuları yetişəcəklər. Xoşbəxt olsunlar!